# Tolerantlıq nümunəsi

**"Azərbaycan tolerant, din-dövlət münasibətləri baxımından böyük təcrübəsi olan dövlətdir. Ölkəmiz dinlərarası münasibətlərə görə bütün dünyaya nümunədir".**



Bu sözləri Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov deyib. Deputat bildirib ki, dünyanın heç bir yerində müsəlman, katolik, pravoslav, yəhudi, eyni zamanda alban dinindən qalan udi mədəniyyətinin vəhdətini, bir-birilərinə olan yüksək hörməti, bütün tədbirlərdə birgə iştiraklarını görmək mümkün deyil. Bunu ancaq Azərbaycanda müşahidə etmək olar.

Komitə sədri qeyd edib ki, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında münasibətlərin səmimi olması iki xalqın maraqlarına xidmət edən amildir: "Dövlətlərarası münasibətlərdə rəsmi məmur münasibətlərindən əlavə, din həmişə mühüm rol oynayıb. Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill və Qafqaz Müsəlmanları İdarəsi, həmçinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasındakı yüksək münasibətlər də əlaqələrə müsbət təsir göstərir və xalqlarımızı yaxınlaşdırır. Patriarx Kirillin Azərbaycana səfəri də əlaqələrin inkişafında mühüm rol oynayır. Kirill Azərbaycana dəfələrlə gəlib və yüksək səviyyədə qəbul olunub. O, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə də görüşüb. Ümumiyyətlə, belə görüşlərdə iki dövlət arasında münasibətlərin daha da inkişaf etməsi ilə bağlı maraqlı təkliflər səsləndirilir, o cümlədən din-dövlət münasibətlərinin Azərbaycan nümunəsi haqqında Rusiya tərəfinin maraqlı fikirləri olur. Bu dəfə də Kirill bu məsələləri qabartdı, Azərbaycanın uğurlarını bir daha dilə gətirdi".

A.İsgəndərov xatırladıb ki, qələbənin 80 illiyi ilə bağlı Prezident İlham Əliyevin Rusiyaya dəvət olunması, həmçinin Birinci vitse-prezident Mehriban Əliyevanın Patriarx tərəfindən ən yüksək mükafata layiq görülməsi bizim münasibətlərimizin mövcud vəziyyətini göstərir. Azərbaycan təkcə Şərqlə Qərbi birləşdirmir, həm də dünya dinləri arasında səmimi münasibətlərin yaradılmasında nümunəvi ölkədir. Bunu əksər dövlətlər görür və qəbul edir. Bəzən Azərbaycanın bədxahları dinlərə olan münasibətdə ölkəmizə qarşı böhtanlar yağdırırlar. Bütün bunlar, təbii ki, qarayaxma kampaniyasının bir parçasıdır. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın uğurlarını qəbul edə bilməyənlər ortaya çıxıb. Amma Azərbaycanın uğurları göz qabağındadır. Onlar unudurlar ki, Azərbaycan artıq ötən əsrin 90-cı illərinin dövləti deyil.

Din-dövlət münasibətlərinin yaradılmasında, inkişafında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidməti olduğunu vurğulayan komitə sədri bildirib ki, bu sahədə Ulu Öndərin müəyyən etdiyi siyasət dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir: "Bu gün Azərbaycanın ayrı-ayrı bölgələrində məscid, sinaqoq, kilsələr tikilir, təmir-bərpa olunur. Bütün dini abidələrə eyni münasibət bəslənilir, diqqət göstərilir. Bütün bunlar Azərbaycanın tolerant ölkə olduğunu bir daha göz önünə sərir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 6 may (№ 91).- S.10.